İnsanın səadəti, ülviyyət və qüdsiyyəti, bəşəriyyətin taleyi və aqibəti, dünyanın nicatı və ədaləti məsələləri Şekspiri ciddi düşündürən cahanşümul problemlərdir. İnsanı sevmək, onu iblisin hakimiyyətindən, nəfsin şərindən və dəhşətindən qurtarmaq, onun zəkasını və qəlbini həqiqətin nuru ilə ziyalandırmaq, ədalətli dünya, ideal insan abstraktının gerçəkləşməsinə müvəffəq olmaq xəyalı və kamalı Şekspirin şedevrlərində fəlsəfi kredo mahiyyətindədir. Böyük sənətkarın əsərlərində zəkanın oyanması, mənəviyyatın canlanması ilə sanki insanın və dünyanın da yenidən kəşf olunması faktı reallaşır.




*XVI-XVII əsr Qərb Renessansı dahi ingilis dramaturqu və mütəfəkkiri Uilyam Şekspirin əsərləri ilə ehtişamlıdır. Renessans dühasının əsərlərində bütün diqqət insana, onun mənəvi dünyasına və bu dünyanın mürəkkəbliyinə, gözəlliyinə, ziddiyyətlərinə yönəlir.*

Professor Mehdi Məmmədov Renessans dövrünü səciyyələndirdiyi zaman belə izah edir ki, bu dövrdə "Avropada "Humanizm" adlanan fəlsəfi-estetik cərəyan geniş intişar tapır. İnsan fəlsəfənin, elmin, incəsənətin, ədəbi əsərlərin diqqət mərkəzində durur. İnsanın mənəvi təkamülü, onun bu dünyada azad və xoşbəxt yaşaya bilməsi vacib problem kimi humanistləri məşğul edir, dərindən düşündürür. Buna görə də Leonardo da Vinçi, Petrarka, Cordano Bruno, Servantes, Şekspir kimi alimlər və sənətkarlar insan ləyaqətini, onun mənəvi gözəlliyini hər şeydən üstün tutur, yeni insan obrazını, onun real varlığını orta əsrlərin cəhalətinə, dini ehkamlara, kilsə əsarətinə qarşı qoyurlar" [Mehdi Məmmədov "Teatr düşüncələri", Bakı, İşıq, 1977 səh.80]. Mehdi Məmmədovun baxışlarında Şekspir fəlsəfəsi mənəvi gözəlliyi tərcih, tədqiq və təşrih edir. Humanizm idealları, ideal insan obrazının idrakı bu böyük dühanın bütün əsərlərində əzəmətli ləyaqətlərdir. Şekspir sənəti Renessans mədəniyyəti tarixində nəhəng mərhələdir. Onun ölümsüz əsərləri əsrlərin ibrət və idrak mənbəyidir. Tarixi qanunauyğunluqdur ki, rejissurası və elmi baxışları ilə teatr sənəti tarixində özü nəhəng açılış və təkamül olan Mehdi Məmmədov klassik əsərlərə müasirlik kateqoriyasının fəlsəfi-estetik prinsipləri ilə münasibət bəsləmiş, öz böyük istedadını klassikada təsdiq etmişdir.

Onun fəlsəfi təfəkkürü klassik dramaturgiyada, o cümlədən Şekspir dünyasında dərinləşmişdir.

Uilyam Şekspir (1564-1616) Renessansın böyük dühasıdır. Onun dünya mədəniyyəti xəzinəsini zənginləşdirən sənət cəvahirləri zəka və qəlb sərvətidir. Şekspirin əsrlərin ruh memarı olan dahiyanə əsərləri insanlıq üçün həyat akademiyasıdır. Əsərlərindəki fəlsəfi dərinlik və bu dərinlikdəki möhtəşəmlik fövqəladədir. Onun kədərində səadət, sevincində ciddiyyət vardır. Dahi dramaturqun dünyası hikmət və ziddiyyətlər dünyasıdır. Göz yaşlarının və gülüşün, insaniyyətin və vəhşətin təzadından qurulmuş bir dünya!..

Bu dünyanın iki qütbü-gülüşü və göz yaşları zəkanın və qəlbin zəngin qidasıdır. Dahi dramaturqun tragizmi də, komizmi də ruhu dirildir, nəfsi ağla tabe edir, məntiqi gücləndirir, mənəvi aləmi müalicə və əməliyyat edir, insanlıq teoremini kəşf eləyir.

Acı və uca həqiqətləri şərh edərək insana "İnsan" olmanın sirrini açır, "katarsis"dən keçirərək, gözəllik ideallarını reallaşdırmağa çalışır. Əsərlərindəki fəlsəfi imperativlik Şekspirin dilədiyi, izlədiyi ideallarin, humanizm ideyalarının qüdsiyyətini təsdiq edir.

Professor Mehdi Məmmədov "Teatr düşüncələri" adlı əsərində Şekspirin gülüşü və göz yaşları, onun parlaq dühası və dünyası haqqında fəlsəfi-estetik mülahizələrini irəli sürür: "Böyük dramaturq bir vətəndaş, bir sənətkar kimi öz dövrü ilə möhkəm bağlı olmuş, dövrünün dərin ziddiyyətlərini faciələrində rea-

list qələmlə əks etdirmişdir. Onun pyeslərinin çoxu öz süjetini qədim zamanlardan, tarixdən alsa da, ideya və mündəricə etibarı ilə müasirdir. Bu faciələr bir də ona görə qiymətlidir ki, Şekspir həyatda gördüyü və öz əsərlərində əks etdirdiyi bəd əməllərin, bədbəxtliyin, zülmün və ədalətsizliyin səbəblərini yerlərdə, real həyatda, insanların mənəviyyatında axtarır. Müəllif bütün bu səbəbləri axıra qədər düzgün şərh edə bilməsə də, həyatdakı fəlakət və bədbəxtlikləri ürək ağrısı, can yanğısı ilə, bütün dəhşətilə açıb göstərir. O, dərdin, bəlanın əlacını tapmasa da, dərdi, bəlanı bütün dəhşətilə göstərir ki, tamaşaçılarda "qorxu və can yanğısı" oyatsın, onları "mənəvi paklaşmaya" ("katarsis") sövq etsin və bəlkə də bu sayaq can üzən dərdlərin, işgəncələrin, itgilərin, qurbanların sayını azalda bilsin. O, həyatın və insan qəlbinin qaranlıq guşələrini, fəlakətləri, cinayətləri həqiqətin nuru ilə işıqlandırmağa çalışır" [Mehdi Məmmədov "Teatr düşünjələri", Bakı, İşıq, 1977 səh. 85].

Professor C.Cəfərovun yazdığı kimi "bu dövrdə də yaxşı, prinsipial mənada mühüm tamaşalar meydana çıxmışdı. On il sərasər səhnədən düşməyən "On ikici gecə"ni onların sırasından xüsusilə ayırmaq və fərqləndirmək lazımdır. "Şıltaq qızın yumşalması" pyesindən sonra Azərbaycan səhnəsində göstərilən bu yeni, ikinci Şekspir komediyası 1946-cı il aprelin 20-də bu zaman artıq M.Əzizbəyov adına teatra gəlmiş rejissor Mehdi Məmmədovun quruluşunda səhnəyə qoyulmuşdu. Rejissor obyektiv olaraq, Azərbaycan teatrının necə inkişaf etməsi, milli səhnə sənətinin müasir səhnə tələbləri səviyyəsinə qalxması yolundakı maneələrin aradan necə qaldırılması mövzusunda yaradıcılıq mübahisəsinə başlamış olurdu. Bunun üçün yalnız yaxşı pyes yox, həm də aydın estetik mövqe, metod və üslub probleminin dərindən dərki tələb olunurdu" [Cəfər Cəfərov" Azərbaycan teatrı", Bakı, 1974 səh.229-230].

Profesor Mehdi Məmmədov isə yazır: "Bu tələbat təkcə rejissora yox, tamaşanı yaradanların hamısına, habelə ifaçı aktyorlara da aid idi. İndi mən bu sətirləri yaza-yaza dönüb otuz beş il əvvəlki günləri, "On ikinci gecə" əsərinin məşqlərini yada salıram. Bütün təfsilatı ilə xatırlayıram və böyük razılıq hissi ilə təsdiq edirəm ki, tamaşanın iştirakçıları söylənən tələbləri yekdilliklə qəbul edir, dərk edirdi" [Mehdi Məmmədov " Onun sənət ulduzu", Bakı, İşıq, 1983 səh.55-56].

"Dahi ingilis dramaturqu Uilyam Şekspirlə Azərbaycan tamaşaçılarının tanışlığı əsrin ilk əvvəllərindən başlayır.

1920-ci ildən sonra onun əsərləri səhnələrimizə daha geniş yol tapır. 20-ci və 30-cu illərdə "Hamlet", "Otello", "Maqbet", "Kral Lir", "Romeo və Cülyetta" faciələri M.Əzizbəyov adına teatrda tamaşaya qoyulur. Dramaturqun komediyalarından isə yalnız biri - "Şıltaq qızın yumşalması" burada səhnə təcəssümü tapır. Beş faciə müqabilində bir komediya Şekspir dünyası haqqında kifayət təsəvvür üçün, əlbəttə, azdır" [Mehdi Məmmədov "Onun sənət ulduzu", Bakı, İşıq, 1983 səh.56].

Bu mülahizələrə öz münasibətimizi bildirmək istəyirik. Cəfər Cəfərov Mehdi Məmmədovun "On ikinci gecə" komediyasına müraciətinə qiymət verərkən yazır ki, "rejissor obyektiv olaraq, Azərbaycan teatrının necə inkişaf etməsi, milli səhnə sənətinin müasir səhnə tələbləri səviyyəsinə qalxması yolundakı maneələrin aradan necə qaldırılması mövzusunda yaradıcılıq mübahisəsinə başlamış olurdu" [Cəfər Cəfərov " Azərbaycan teatrı", 1974 səh.229].

Mehdi Məmmədov Azərbaycan teatrının klassik əsərlər ruhunda, fəlsəfi üslubda inkişaf etməsi uğrunda yeni bir etap açırdı. Fəlsəfi təfəkkürün təkamülü, fəlsəfi üslubda yeni bir teatr cərəyanının təşəkkülü üçün Şekspir dramaturgiyasından daha gözəl bir müraciət obyekti tapmaq mümkün deyildi.

Rejissor öz fəlsəfi üslubunu səhnə sənətinə monumental mündəricə və formada tətbiq edə bilmək üçün öncə bu işin təməlini Şekspir kimi bir nəhəngin əsərinə müraciət etməklə qoya bilərdi. Birincisi, Şekspirin faciələrindən sonra "On ikinci gecə" Azərbaycan səhnəsində təcəssüm etdirilən ikinci komediyası olurdu. Bu, özü dəyərli və nailiyyətli bir yenilik olaraq səciyyələndirilməlidir.

İkincisi, bu Şekspir komediyasının monumental səhnə həlli ilə Mehdi Məmmədov Azərbaycan səhnəsinin 50-ci illərdən etibarən klassik istiqamətdə inkişaf etməsi yönündə yeni bir mərhələ açırdı - "fəlsəfi təfəkkür" teatrının formalaşması faktının reallaşması ilə xarakterizə edilən tarixi mərhələ.

"On ikinci gecə" və ya "Hər nə istəsəniz" komediyası mürəkkəb və rəngarəng səhnə əsəridir. Pyes adından göründüyü kimi təzadlarla doludur. Bu komediyada iki cəhətin ziddiyyəti və ziddiyyətin rəngarəngliyi mövcuddur. Müsbət və mənfi xarakterlər, romantik-lirik və komik-satirik hadisələr, ülvi-şairanə duyğular və çirkin ehtiraslar bir-biri ilə harmonik tərzdə uyuşmuşdur. Təzad və çoxcəhətlilik bu komediyanın ümumi qurğusunda, surətlərin daxili dünyasında açıq görünür, pyesin süjet və ideyasında aşkar sezilir. Hersoqun, Oliviyanın, Violanın romantik-lirik sevgi macərası Ser Endrinin Oliviyaya bəslədiyi komik eşqi ilə bir arada, qarşılıqlı kolliziyada göstərilir; Hersoqun hicran iztirabı, Oliviyanın oğlan libası geymiş Violaya bəslədiyi ülvi və kədərli məhəbbəti bu "qəribə" məhəbbətin doğurduğu komizmlə birləşir. Hadisələrin, surətlərin və səhnələrin təzadından mətnin, dialoqların və ifadə formalarının rəngarəngliyi meydana çıxır. Romantik obrazlar əsasən poetik dillə, komiklər isə nəsrlə danışırlar. Belə bir müxtəliflik üslub, mündəricə və forma qarışıqlığı kimi təsir bağışlamır. Dramaturq poeziyaya nəsr, komizmə gözəllik, lətifəyə dərinlik, dərin düşüncəyə məzəlilik qataraq öz dühası, incə hissiyyatı ilə bütün bu fərqli xüsusiyyətləri bir bütün, üzvi ahəng şəklində birləşdirir.



Mehdi Məmmədov tamaşada bu təzadın mahiyyətini, komizmin hikmətini, lətifənin ciddiyyətini və romantik-lirik xəttin zərafətini gözəl duymuş, Şekspirin fəlsəfi-estetik məramnaməsini hakimanə surətdə anladıb duyurmuşdur.

Pyesdə əsas obrazlar Hersoq, Oliviya, Viola və Antoniodur. Bu kvarteti təşkil edən xarakterlərin dördü də aşiqdir. Hər biri eşq yolunda cəfakeşdir. Hersoqun məhəbbəti xəyalidir, mücərrəddir. O, Oliviyanın sevgisilə yaşadığını söyləsə də, əslində niyyətində və əqidəsində qeyri-sabitdir. Tamaşanın finalında o, Oliviyanı buraxıb Viola ilə evlənir. Ancaq yenə fədakardır. Sevir, lakin sevilmir. Violanın sevgisi ciddi və konkretdir. O da sevir, fəqət içində olduğu vəziyyət onun seviləcəyinə ümid vermir. Antonionun məhəbbəti bəsitdir, dost istəyidir. Oliviya isə Violanı oğlan zənn edərək sevmişdir. O da əzab çəkir. Çünki məhəbbəti rədd edilir. Rejissor bu ziddiyyətləri fəlsəfi təfəkkür və obrazlı təxəyyül gücünə şərh etməyə nail olur.

O, bu səhnələri qurarkən məntiqi mənanı ön plana çəkir, komizmdəki fəlsəfi məzmunu və romantizm pafosunu aşkarlamağa çalışır. Komik səhnələrdə belə həqiqi məhəbbətin öz ciddiyyətini, hicran və kədərini, gözəllik və müqəddəsliyini qoruduğunu isbata yetirir. Burada sevənlərin hamısı qəlbən və istəyərək sevir. Yalnız Oliviya başqalarından fərqli olaraq əvvəllər sevmir. Sevmək istəmir. O, heç bir zaman sevməyəcəyinə and içmişdir. Əgər başqa obrazlar sevgi yolundakı maneələrə xaricdə rast gəlirsə, Oliviya bu maneəyə, öncəliklə öz daxilində rast gəlir. Sevmək üçün o, öz andına, məntiq dünyasına qarşı çıxmalı, şüuru, qəlbi ilə mübarizəyə qalxmalı və özünü məğlubiyyətə uğratmalıdır. Bu kontrast Violanın vəziyyəti və hissləri ilə müqayisədə anlaşılır. Viola Hersoqu gizli sevir. Oliviya isə Violanı - Sezarionu açıq sevir; sirrini bəyan edir. Rejissor "On ikinci gecə" komediyasındakı bütün bu ziddiyyətləri, paradoksal xüsusiyyətləri yüksək dramatizmlə, incə yumor və komizmlə, zərif lirizm və fəlsəfi romantizm boyalarıyla səhnədə canlandırırdı. O, qəhrəmanların eşqində, əqidəsində və dünyagörüşündə mövcud olan müdrikliyi, müəllifin əsərindəki hakimanəliyi açmağa çalışırdı və buna müvəffəq olurdu. Şekspirin yalnız faciələrində deyil, məzhəkələrində də fəlsəfi ehtişam və dərinlik vardır. Komediyadakı fəlsəfiliyi açıb göstərə bilmək faciədən qat-qat ağırdır. Komizmin tragediyasını, gülərək ağlamağın təsnifatını aşkarlaya bilmək həqiqətən çox ağırdır. Bu, zəka tələb edən məqamdır. Mehdi Məmmədov öz mütəfəkkir zəkası ilə bu müşkülü mümkünə çevirə bilmiş, Şekspirin gülüşündəki fəlsəfəni bütün gözəlliyi ilə göstərmişdir (bəzən Falstaf fonunda).

Mehdi Məmmədov "Teatr düşüncələri" kitabında belə yazır: "Ürəkdən gələn cəsarətli gülüş İntibah dövrünün bir çox sənətkarlarına, Bokkaçço, Rable, Servantes, Lope de Veqa kimi yazıçılara ümumiyyətlə xas olan keyfiyyətdir. Amma orta əsrin cəhalətinə qarşı çıxan humanistlərdən heç biri Şekspir qədər məzəli və mənalı gülmür, yeri gələndə ən qüvvətli faciələrində belə gülməkdən çəkinmir. Bu gülüş onun həyata azad, ciddi və hakimanə baxmasından doğur. Şekspir gülüşü qüsurların islahı, eyiblərin ifşası üçün bir vasitə, bir çarə hesab edir. O, insanları sevir, onların ruhunu, mənəviyyatını

saflaşdırmaq, gözəlləşdirmək istəyir. Onun komediyalarındakı gülüşün köklərini də burada, bu arzularda, insana bəslənən məhəbbətdə axtarmaq lazımdır" [Mehdi Məmmədov" Teatr düşüncələri", Bakı, İşıq, 1977 , səh.81].

Tamaşada Oliviya ağıllı təlxəyi Malvolionun hücumundan qoruyarkən sanki Şekspirin özüylə bərabər deyir: "Sizdə xudbinlik xəstəliyi vardır, Malvolio. Siz heç şeydən ləzzət almırsınız... Ağıllı adam ələ salmadan insanın qüsurunu göstərdiyi kimi həqiqi təlxək də kimsəni təhqir etmədən ancaq istehza edir".

"On ikinci gecə"nin başqa bir səhnəsində Şekspir Viola-Sezarionun diliylə belə deyir:

"Axmağı oynamaq üçün onda baş var, beyin var;
Bacarmaz bu sənəti idrakı olmayanlar.
Ələ salıb güldüyü, böyük - kiçik bilafərq
Hər kəsi yaxşı duyub bilməlidir o, mütləq.
Sərrafı olmalıdır o, vaxtın və insanın.
...Çox ağıllı görünən adamların işindən.
Bu axmağın işini xeyirli tuturam mən.
Belə bir axmaqlığın dərin mənası vardır,
Çox zaman axmaq işlər görən ağıllılardır".

Mehdi Məmmədov bu fikirləri şərh edərək yazır: "Şekspirin gülüşü, yumoru xalq ruhu və xalq yaradıcılığından gəlmə ünsürlərlə aşılanmışdır. Buna görə onun gülüşü həmişə mənalıdır. Bu gülüş çox vaxt ciddi fikirlərin, yüksək duyğuların müdafiəçisi və ifadəçisi kimi səslənir. O, böyük ciddiyyət və dramatizm ilə yanaşı yaşayır, dərin təzadlardan qüvvət alır" [Mehdi Məmmədov "Teatr düşüncələri ",Bakı, İşıq ,1977 səh.82].

Filosof rejissor Şekspir gülüşündəki ciddiyyəti, hikməti və dramatik ziddiyyəti belə bir idrakla, rasional sənət fantaziyası ilə canlandırırdı. Rejissor tamaşada bu təzadın obrazlı ifadəsini, komizmin dramatik gərginliyini və dərinliyini Oliviya (Hökümə Qurbanova) və Viola (Barat Şəkinskaya) münasibətlərində və bu münasibətlərin nəticəsində, üzüntülü aqibətində açıqlayaraq, əsərin ideya-bədii ləyaqətlərini isbatlayırdı.

Oliviya Violanı Sezario bilib aşkar sevir. Viola - yalançı Sezario isə Hersoqu gizlincə sevir. Bu qəribə məhəbbət macəralarının sonu elə qəribə də bitir. Komediyanın final səhnəsində Viola Hersoqla evlənir, Oliviya isə əsil həqiqəti idrak edir. Öz aldanışı, aldanış dolu məhəbbəti ilə belə vidalaşır:

"Əlvida! İblis olub cəhənnəmə də getsən,
Ayaq yalın baş açıq gələrəm ardınca mən!.."

Oliviya (Hökümə Qurbanova) öz yanılmış eşqinə, səhv məhəbbətinə belə bir epiloqla son qoyur. Mehdi Məmmədovun quruluşunda "On ikinci gecə" Renessansın şedevr lövhəsinə, Oliviya (Hökümə Qurbanova) isə bu əsərin gözəlinə çevrilirdi. Tamaşada Şekspir sehrinin gözəlliyi Mehdi cazibəsinin gözəlliyi ilə yüksək harmoniya şəklində bir-birinə qovuşurdu. Aktyorların yaşantısı, musiqi və səhnə tərtibatı rejissorun fəlsəfi üslubunu tamamlayır, onu konkret formada ifadə etməyə can atırdı. Rejissor tamaşada, Şekspir dühasını, onun gülüşündəki hikmətli mənanı, müəllifin sənət dünyasına, bu dünyanın sakinləri olan obrazlara xas olan aristokratlığı, dəbdəbə və ehtişamı bütün gözəlliyi və nəcabəti ilə göstərirdi. Göstərərək düşündürür və şərh edirdi ki, "On ikinci gecə" Şekspirin sehrindən doğan romantik məhəbbət hekayəsidir. Müqəddəs, ülvi və şairanə eşqin təntənəsidir.

Mehdi Məmmədov Şekspirin güldürərək düşündürən komizmini, təbəssümündəki kədəri, kədərindəki nikbinliyi, sevincindəki matəmi, matəmindəki ümid və səadəti, gülüşündəki hikməti və sözlərindəki hikmətli həqiqəti böyük istedad, güclü intellekt, bədii-obrazlı təxəyyüllə fəlsəfi idraka qovuşdururdu. Həqiqətən, "On ikinci gecə" ağılla, ilhamla və Şekspir dramaturgiyasına dərin bir bələdliklə hazırlanmışdır" [Cəfər Cəfərov " Azərbaycan Teatrı", Bakı, 1974, səh.230].

"Azərbaycan səhnəsindəki "On ikinci gecə" dahi dramaturqun əsərlərinin ən yaxşı interpretatoru olan sovet teatrının yeni müvəffəqiyyətidir" **[Газета "Известия", Баку, 19 мая 1946].**

"Sovet teatrının Şekspir repertuarına qiymətli və əhəmiyyətli əlavədir" ["Ədəbiyyat" qəzeti, Bakı , 1 may 1946].

Beləliklə, rejissor qədəm qoyduğu yeni mərhələnin, fəlsəfi təfəkkür pilləsinin ilk və mürəkkəb sınağından, Şekspir imtahanından böyük müvəffəqiyyətlə çıxır. Azərbaycan teatrı üçün isə yeni və möhtəşəm bir cərəyanın (fəlsəfi düşüncə cərəyanının) təməlini qoyur.

**Rövşən Cəfərov**